# İNSAN HAQQINDA DASTAN

***14 yanvar Şəddat Cəfərovun ad günüdür. Ömrün ən mənalı akkordları haqqında səmimiyyətlə söz açmaq təkcə bizim borcumuz deyil, həm də onun haqqıdır.***

Müasirlərimiz arasında elə insanlar var ki, onların həyat yolunu, əməli fəaliyyətlərini, cəmiyyətlə bağlı düşüncələrini öyrəndikcə heyrət hissləri yaşayırsan. Sanki belələri canlı əfsanədir.

Əfsanələr də, dastanlar da, nağıllar da... yox yerdən yaranmır. Bu şifahi xalq ədəbiyyatı örnəklərini yaradan düşüncə əslində bir çox həyat həqiqətləri önündə öz heyrətini ifadə edir.

Şübhəsiz, bütün əfsanələrin, nağılların və dastanların əsasında insan taleyi dayanır. Hər kəs tanıdığı, bildiyi, haqqında eşitdiyi birinin qeyri-adi dərəcədə əzəmi keyfiyyətlərini daha qabarıq şəkildə başqasına danışır. Beləliklə, əsasında real insan dayanan hekayət qeyri-adi məzmun kəsb edir.

Mən Şəddat Cəfərovu onunla yaradıcılıq əlaqəsi yaratmış 70-80-ci illər ədəbiyyat adamlarından ən gec tanıyan olmuşam. Doğrudur, bu gecikmənin özü də heç o qədər cavan deyil. Artıq 25 ildən çoxdur ki, Şəddat Cəfərovun nağıllaşmış, az qala əfsanələşmiş həyatının tanıdığım zamandan əvvəlki mərhələsini öyrənməkdəyəm və üstəlik tanıdığım zamandan bəriki dövrü ardıcıl müşahidəmlə yaddaşıma yığmaqdayam.

Bəs əslində Şəddat Cəfərov kimdir? Nə üçün onu canlı əfsanə kimi xarakterizə etməyə çalışıram?

Əvvəla, Şəddat Cəfərov onu tanımaq istəyən, onunla yaradıcılıq münasibətlərində olan hər kəsə açıq adamdır. Asanlıqla ünsiyyət qurmaq imkanı o qədər genişdir ki, bundan hər kəs yararlana bilir.

Birinci növbədə, Şəddat Cəfərov təbiət etibarı ilə humanist insandır. Demək olar ki, həyatının 50 ili çap sahəsi ilə bağlıdır. Nəşriyyat sahəsində fəhləlikdən ali rütbəyə qədər yol keçib. Görkəmli poliqrafistdir. Poliqrafiya sahəsindəki tədqiqatlarını uzun illər öncə nəzəri əsaslarla ümumiləşdirə bilib. Və Moskvanın müvafiq elm mərkəzləri ilə ciddi əlaqələr yaradıb. Görkəmli nəzəriyyəçi poliqrafçıların, poliqrafiya sahəsində iqtisadi nəzəriyyə yaradıcılarının əsərlərini öyrənməklə, hətta bu sahənin ən görkəmli alimləri ilə canlı ünsiyyətlə dissertasiyasını da uğurla işləyib və demək olar ki, poliqrafiya sahəsində bir çox yeniliklərin yaradıcısı kimi tanınıb.

Təsadüfi deyil ki, o, Azərbaycanın ilk poliqrafçı alimi titulunu qazanıb. "İlk"lər üçün əməli fəaliyyət həmişə ciddi mübarizələrdən keçir. Şəddat Cəfərov da yaradıcı ilkçi olduğu üçün özünün təşəbbüslərini, ideyalarını gerçəkləşdirənə qədər bir çox şablonları dağıtmalı olub.

***(Davamı 2-ci səhifədə)***

# İNSAN HAQQINDA DASTAN

***14 yanvar Şəddat Cəfərovun ad günüdür. Ömrün ən mənalı akkordları haqqında səmimiyyətlə söz açmaq təkcə bizim borcumuz deyil, həm də onun haqqıdır.***

*(Əvvəli 1-ci səhifədə)*

Mən illər öncə Şəddat Cəfərovun əməli fəaliyyətindəki ilklər haqqında bir esse də yazmışdım. Həmin "İlklərin paradında" adlandırılanessedə Şəddat Cəfərovun həyatına fərəh gətirən ilklərin xarakteristikasını verməyə çalışmışam: "İlk" sözünün özündə bir müəmma, görünməzlik var. Hər hansı bir sahədə ilk olaraq meydana çıxmaq, ilkin olmaq, nədəsə birincilik missiyası daşımaq insana ömrü boyu fərəh də gətirə bilər. İlkin olmağın sevincini yaşamaq nə qədər fərəh doğura bilərsə, elə olar ki, bu fərəh asanlıqla kədərə, faciəyə də çevrilə bilər. Müəyyən təcrübəyə istinad etməlidir. İlk əməl istehsalatda, xüsusilə, hərbdə çox ciddi fəsadlara da səbəb olar. Demək, hər hansı bir sahədə ilkin olmaq üçün şəxsin cəsarəti, mənəvi, elmi hazırlığı olmalıdır". Əlbəttə, bu qeydlərdən sonra Şəddat Cəfərovun tale yolunu izləmək, hansı ilklərlə həyatını, əməli fəaliyyətini zənginləşdirən məqamları üzə çıxarmaq kifayət qədər ciddi psixoloji tədqiqat tələb edir. İndi həmin ilkləri burada da sadalamaq olar. Ancaq buna lüzum görmürəm. Bircə məqama xüsusi aydınlıq gətirmək niyyətindəyəm. Azərbaycanda ilk dəfə poliqrafçı alim olan Şəddat Cəfərov elmi fəaliyyətini davam etdirməklə həyati müşahidələrinə bədii fon verməyi də bacarıb. Beləliklə, o həm də ilk dəfə yaradıcılıqda poliqrafiya sahəsini bədii mövzuya da çevirib. Yazıçı kimi, jurnalist kimi, poliqrafçı kimi tanınıb. Onun həyat yolunu izləyən hər kəs bir daha Nizaminin məşhur düsturunun nə qədər həqiqət olduğunu aydın görə bilər.

Çox iti beyinlər yatan oldular,<br>
Axırda saxsı qab satan oldular.

Acı həyat həqiqətidir. Şəddat Cəfərov sanki bunu həyatının ilk pillələrində dəqiq başa düşüb. Ona görə də əməli fəaliyyətində durğunluğa yol verməyib. Özünün maraqlı bir düşüncəsi də var: "Mən yaxşı bilirəm ki, hər kəs özünün həyatını kitabla zənginləşdirə bilər. Çünki kitab istedadlı adamların düşüncə məhsuludur. Hər kəs yalnız kitab oxumaqla özünün düşüncə aləmini zənginləşdirə bilər. Mən həyatımda nəyə nail olmuşamsa, klassiklərin dediyi kimi, kitablara borcluyam. Özü də bir çoxlarından fərqli olaraq, demək olar ki, mən kitabları axtarmağa lüzum görməmişəm. Çünki kitablar hələ nəşr olunmazdan əvvəl mənim yanıma gətirilib. Məlumdur ki, hər bir yazıçı, sənət sahibi, söz adamı yazdığının bir sərraf oxucu tərəfindən oxunmasını, yazılanın haqqında rəy verilməsini istəyir. Yazıçılar, şairlər təbiət etibarı ilə kövrək olurlar. Onların mənim kitabımı oxu deyə səmimi müraciətlərini mən heç vaxt cavabsız qoymamışam. Zəhmət çəkib oxumağa çalışmışam. Hətta oxuduqdan sonra bir çox hallarda nəşr üçün təqdim olunan kitab haqqında düşüncələrimi də qələmə almağa çalışmışam. Beləliklə, heç planlaşdırmadan, xüsusi bir məqsəd olmadan kitablar mənim həyatımdan keçib, məni yazmağa, düşüncələrimlə özümü ifadə etməyə vadar edib". Şəddat Cəfərovun bu düşüncələri çox realdır. Həyat həqiqətinə əsaslanır.

Onu da deyim ki, Şəddat Cəfərovun kitablarla üsniyyəti bu gün də davam edir. Nəşr etdiyi kitabların demək olar ki, əksəriyyətinə annotasiyaları özü yazır. Həmin nəşriyyat qeydlərində o, kitabın əsas annotasiyasını, məzmunu ifadə edir.

Şəddat Cəfərov Azərbaycanda ilk dəfə miniatür kitabların buraxılması üçün təşəbbüs göstərib. Hələ 70-ci illərdə onun naşirliyi ilə ilk miniatür kitab buraxılıb. Əlbəttə, miniatür kitab ənənəsi dünya poliqrafiyasında çoxdan mövcuddur. Amma bu ənənəni Azərbaycana gətirmək, məhdud poliqrafiya imkanları çərçivəsində reallaşdırmaq xüsusi bilik və cəsarət tələb edirdi. Şəddat Cəfərov bu çətinliklərin öhdəsindən uğurla gəlmişdi.



Görkəmli poliqrafçı naşir kimi tanınan Şəddat Cəfərov mətbəələrdə iş şəraitinin yaxşılaşdırılması üçün ciddi mübarizələr aparıb. Hələ XX əsrin əvvəllərində Azərbaycanda mətbəələr üçün rütubətli, qaranlıq zirzəmilər ayrılırdı. Bu "ənənə" demək olar ki, Azərbaycanda mətbəələrin cəmləşdiyi Bakı şəhərində 60-cı illərə qədər davam etdi. Sonralar Şəddat Cəfərov xatırlayırdı ki, mətbəələrin zirzəmilərdən çıxarılması üçün o necə çətinliklərlə qarşılaşıb. Keçmiş Sovet İttifaqının müvafiq sahə üzrə naziri Azərbaycanda Şəddat Cəfərovun təşəbbüsü ilə yüksək texniki imkanlarla təchiz olunmuş, iş üçün şəraitin görünməyən dərəcədə yaxşılaşdırılmasını öz gözləri ilə görmək üçün Bakıya gəlir. Mətbəəni gəzir, sexləri görür. Buradakı şəraitlə tanış olduqdan sonra heyrətini gizlətmir. O, bu yeni mühiti Bakıda poliqrafiya sahəsinin inqilabi dəyişikliyi adlandırır.

Ş.Cəfərov sonralar da öz təşəbbüsü, səmərələşdirici təklifləri ilə bir çox poliqrafik yenilikləri davam etdirir. Xüsusilə dünya kitab mədəniyyəti üçün incəsnət əsəri hesab olunan miniatür kitab ənənəsini yaşarı bir sahəyə çevirir.

Xalq şairi Zəlimxan Yaqubun "Saz" poemasının miniatür nəşrini yada salmaq kifayət edər ki, görkəmli naşirin əməli fəaliyyətinin mahiyyəti-ni daha aydın qavrayaq.

Şəddat Cəfərov 1940-cı ildə Bakıda doğulub. Onun ilk uşaqlıq çağları müharibənin ağır zamanına təsadüf edir. Anasının fədakarlığı ilə uşaqlar ölümün cəngindən xilas olur. Ailə nə qədər çətinliklər görür. Ana övladlarını da götürüb təzədən doğma kəndə qayıdır. Vaxtı ilə bu ailəyə qarşı qəddar münasibət göstərən adamların necə tale cəzasına məruz qaldığını da görürlər.

Şəddatın atası Muğdad Hüseyn oğlu müharibədən qayıdır. Əlbəttə, müharibə yaraları ilə. Kənddə yaşamaq hələ 50-ci illərdə də çox çətin idi. Ona görə də Muğdad kişi ailəsini yenidən Bakıya qaytarır. Bakı mühitində təhsil almaq, oxumaq, bir sözlə, paytaxtın yeniliklərini görən, duyan, mənimsəyən gənc nəslin sırasında Şəddat tez parlayır. Məktəbdə oxumağı ilə fərqlənir. Əgər belə demək mümkünsə, o tezliklə bir işə girmək, fəaliyyət göstərmək, ailənin dolanışığına təsir etmək cəhdində olur. Demək olar ki, onun bu cəhdləri çətinliklə də olsa, müəyyən uğurlarla müşayiət olunur.

İlk gəncliyindən hələ yeniyetməliyin sovuşmadığı vaxtdan mətbəədə sinkoqrafiya sexində Şəddat öz bacarığı ilə tezliklə kollektivin ən sevimli üzvün çevrilir. Rəngli şəkil texnikasının təminatını öz üzərinə götürür.

Bütün bunları təsadüfi sadalamıram. Bu həyat faktlarını sadalamaqla hər kəsə Şəddat Cəfərovun həyat yolu ilə bağlı əfsanəvilik həqiqətini çatdırmaq istəyirəm. Onun canlı həyatı sözün həqiqi mənasında bəzək-düzəksiz bir romandır. İnsafən yazıçı Fatma Həsənqızı "Acılı-şirinli günlər" sənədli romanında bu fədakar insanın həyat yolunu qədərincə yazıya gətirə bilib. Eləcə də yazıçı-publisist Sevda Əlibəyli "İlk poliqrafçı alim" adlı publisistik romanında da Şəddat Cəfərovun maraqlı həyatını ardıcıllıqla izləyib.

Şəddat Cəfərov özü fəal yazı adamıdır. Bu gün də yorulmadan işləyir. Nəşrə götürdüyü kitabları oxuyur, rəylər verir. Onun çox canlı publisistik yazı üslubu var. Ədəbiyyat adamları ilə canlı ünsiyyəti bu gün də onun üçün yüksək stimul mənbəyidir.

Artıq uzun illərdir ki, Şəddat Cəfərov "Kredo" qəzetinin redaksiya heyətinin üzvüdür. Qəzetimizin problemlərini, qayğılarını özününkü bilir. Onu da deyim ki, biz də Şəddat Cəfərovun doğma münasibətini diqqətdən kənarda qoymuruq. Onun həyat və yaradıcılığını ehtiva edən "Böyük portretin işığı" adlı iki cildlik düşüncələr (müəlliflər: Əli Rza Xələfli və Ceyhun Zallı) əsəri yazmışıq. Görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri, doktor, professor Yadulla Ağazadə onun haqqında danışarkən kitab çapı işinin dəyərini də xarakterizə edərək yazır: "Poliqrafiyamızın tarixi mədəniyyət tariximizin tərkib hissəsidir. Ölkəmizdə çap işinin, kitab nəşrinin bütün parametrləri əslində Azərbaycan mədəniyyətinin istiqamələtrini şərtləndirən göstəricilərdəndir. Bu mənada mətbu çap fəaliyyəti, eləcə də kitab nəşri ilə məşğul olan bütün müəssisələr, qurumlar mədəniyyətimizin inkişafına xidmət edir... mən yaxşı tanıdığım Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun adını xarakterizə etdiyimiz sahənin ən görkəmli mütəxəssislərdən biri kimi çəkirəm". Bu qeydlərin özü də göstərir ki, Şəddat Cəfərov haqqında yazılanlar təkcə onun həyatının dəyərli sahələrinə işıq salmır. Eyni zamanda mədəniyyətimizin mühüm sahəsini diqqətə çəkir.

Görünür, Şəddat Cəfərovun haqqında bundan sonra da çox dəyərli yazılar qələmə alınacaq. Çünki bu insan əslində həm də canlı mədəniyyət fenomenidir. Həm həyatı ilə, həm də fəaliyyəti ilə...

Bu yazının əvvəlində əfsanələri, dastanları, nağılları yaradan psixoloji məqamlara da diqqəti çəkmək istəmişdim. Adamlar dövrün əsas hadisələrini unutmadıqlarıkimi maraqlı adamları da unutmurlar. Çünki maraqlı adamlar əslində ilham mənbəyidir. Onların yaradıcılığını, fəaliyyətini sözə gətirmək üçün sənət adamı mövzunu öz təbiiliyi ilə qəbul edir. Hətta yazısı olmayan yaradıcı adamlar da var ki, yaxşı tanıdıqları şəxslər haqqında maraqla söhbət açır. Belələrinin həyatının dəyərli anlarını şifahi nitq vasitəsi ilə bir-birinə ötürürlər. Görünür, elə bu səbəbdən də Şəddat Cəfərovun həyat yolu bir insanlıq fenomeni kimi yaddaşlara hopub.

Şəddat Cəfərov Azərbaycan dilinin incəliklərinə kifayət qədər bələddir. Onun yumorlu hekayələrinin dili çox zəngindir.

Şəddat Cəfərov bu gün də fəal həyat yaşayan görkəmli ictimai xadimdir. Yaradıcılıq təşkilatlarında təmsil olunur. Mətbuat Şurasında Ahıllar Məclisinin üzvü, Respublika Ağsaqqallar Şurasının rəyasət heyətində geniş ictimai fəaliyyət göstərir.

Müdrik ata kimi böyük ailənin başçısıdır. Ağıllı övladları var. Nəvələri böyüyür. Həyatının ən üstün cəhətlərini - zəhmətsevərliyini, halallığını, humanizmini övladlarına varisliklə ötürüb.

Sözə sonsuz ehtiram göstərməyinin, sözə sevgisinin nəticəsidir ki, söz də onu həmişə uca tutur.

İnsanların dəyəri ən üstün mənada sözdə öz ifadəsini tapır.

Bizə elə gəlir ki, Şəddat Cəfərovun geniş ədəbi-ictimai fəaliyyəti, xüsusilə kitab nəşri mədəniyyətimizin zənginləşməsindəki xidmətləri hələ də qədərincə qiymətini almayıb.

Əvəzində daha yaxşı təskinlik məqamı var. O, dövrümüzün canlı əfsanəsidir. Bunu inamla deyirik.

*Əli Rza* Xələfli<br>
*13.01.2023*